

■ Seyid AYNUR

## XATİRƏLƏRİN ÜSTÜNƏ

O gecə sahildə,
balıqqulağılar
kimsəsiz qadının nəğməsini ifa edirdi.

Yuxum çin çıxmasın deyə,
Qollarımı dizlərimə düyünləyib
dənizə danışdım.

* * *

Bütün qitə adlarının
A hərfi ilə başlayıb,
A ilə bitməsi qədər
sadə bir həqiqət idi
səni sevməyim.

Getməyəsən deyə,
Su çamurları kimi
yuxuda da əllərindən
bərk-bərk yapışardım.

* * *

Süd dişi ağarırdı göyüzünün:
yavaş-yavaş gözlərini
açırdı səhər.
Evdən məktub alan əsgər,
buşlatını çıxardıb atdı
xatirələrin üstünə,
nişanlısı üşüməsin.

## DİLƏK ŞARLARI

Axşam düşməsin deyə,
Sarı dilək şarlarını uçurardım
mavi göy üzünə
Sən eyvanda saxladığın
bildirçinləri yedirərdin.
Qollarımdan beşik düzəltmişdim:
saçlarımda gizlədərdim
Oyunlar oynayardıq:
gizlən-qaç, səndə-məndə
Ayrılandan bilmişəm
Qəfəsə quşları yox,
saatları qoymalıydıq.

## HAYKU

Hər payız,
gölməçələrə baş vurar
üzgüçü yarpaqlar.

Fırtınalı havada
gəmidən qopan ağ bir yelkən
Dənizə yorğan oldu.

İsti yay axşamı,
düşər yerə dəymiş əriklər
gün batar.

Qız sevincdən ağladı
ikebanalar canlanıb
Bağça oldu.

Alçalar düşər ağacdan,
üzümü turşudub
Xatırlayaram yay imtahanlarını.

Əlimdə güzgü,
günün işığı düşər
Gülümsəyib, göz vurar təbiət.

Şaxtada işçi,
tərdən ovulmuş suxur
Ölüm tuneli.

Düşər suya bəyaz əllər,
Gümüşü əksi qalar saçlarının
Matsmao dağı qarlayar.

Astaca əsər külək,
bir cüt dekabrist
Pəncərəmdə rəsm çəkər.

Kaspi 2020.- 2-4 may.- S.14.